



Arzu NEHRƏMLİ

# UZAĞA GEDƏN GÜN

***Hörmətli Arzu Nehrəmli!***

*Təxminən bir il bundan qabaq "Ulduz" jurnalında "Hərəkat" adlı irihəcmli hekayənizi oxudum. Yazı mənim çox xoşuma gəlmişdi. Qısaca onu deyə bilərəm ki, "Hərəkat" hekayəniz Azərbaycan nəsrində küll halında bir hərəkat təsiri bağışlamışdı.*

*Bu günlərdə mənə göndərdiyiniz "Uzağa gedən gün" hekayənizlə tanış oldum. Həcmcə çox kiçik olan bu yazınızı irihəcmli romanın bir parçası kimi oxudum. Burada "ipə-sapa yatmayan", dəli-dolu yeniyetmə bir qızın, bu qıza vurulmuş hərbi təyyarəçi, sonradan torpaqlarımız uğrunda döyüşlərdə şəhid olan romantik təbiətli Yusifin, onun atası, tanınmış şəxs olan Qara Yaqubun, dil qəfəsə qoymayan, o günü tez-tez xatırlayan, dilinə gətirən camaatın – o günkü Yusif, "Mənim Arzum, sənin Yusifin..." yazılmış vərəqələrə bükülmüş qızılgülləri havadan vertolyotdan "Qırmızı torpaq" məhəlləsinin üstünə səpələmişdi –obrazını ustalıqla yaratmısan.*

*Bu hekayənizi "Uzağa gedən gün"ə qoşulub, uzaq səfərə çıxmağa hazır olan oxucuların diqqətinə çatdırmağı özümə borc bildim və borclu qalmaq istəmədim.*

*Oxucuların boynuna qoymaq olmasın, əgər diqqətlə oxusalar, onlar da mənim gəldiyim nəticəyə halal-hümmət şərik çıxacaqlar.*

*Hörmətlə, Seyran Səxavət*

Uzağa gedən bir gündə "Qırmızı torpaq" məhləsinə havadan vertolyotla həmişəbahar bildiyimiz qızılgüllər və onlara bağlanmış vərəqlər səpələnmişdi. Vərəqlərdə yazılmışdı: "Mənim Arzum! Sənin Yusifin!"

Qəzəbimə səbəb olan, dünyada analoqu olmayan bu romantik hərəkətə qarşı bu işi görən kəndlimiz olan bu oğlanın ünvanına dünyanın ən ağır söyüşlərini söyüb – bir sözlə, kobudluğumun əlamətlərini göstərmişdim. Utandığımdan – ipə-sapa yatmayan dəli bir qız olsam da – bir müddət qonum-qonşunun üzünə çıxa bilməmiş, özüm özümü ev dustağına çevirmişdim.

Bu romantik günün özəlliyini unuda bilməyib dili ağzına sığmayan qonşularımızsa hər oturduqca təkrar-təkrar o günü xatırlayır, elə bil mənim nəslimə söyürdülər.

Xoşbəxtlikdən bütün məhləyə, həyətlərə səpilən bu güllərdən bir dənəsi də olsun bizim həyətə düşməmişdi. Ən böyük toxtaqlığımı da elə ondan almışdım. Hər dəfə üzümü göyə tutub deyirdim: "Al eeeee... Sən səpələməklə deyil ki. Sənə bu da azdır, Qara Yaqubun oğlu!"

El-aləmin kənd soveti, aqronom, briqadir, dönə-dönə seçilən deputat kimi tanıdığı, bu oğlanın atası olan zəhmətkeş, üzüağ kişinin təbii rəngini – qaralığını üzünə elə vurmuşdum ki, ürəyimdən qızılgüllərin tikanlarından da artığı çıxmışdı...

Romantik gündən illər keçmişdi. Deyir, sən saydığını say, gör fələk nə sayır.

Mənim gözümdən qaçırıb, Yusifin hər zaman özü ilə daşıdığı, uçarkən geyindiyi hərbi geyimi olan çantasını babagildən (Yusifin atasıgildən) gətirib mamamgilin evinin çardağında gizlətmişdilər, yəni mənim gümanım gəlməyən bir yerdə.

Günlərin birində birdən elə bil mənə – "Çardağa qalx" – dedilər. Heç bir tərəfi görünməyən, üstünə qara çadır çəkilmiş çantanın içindən Yusifin əynindən çıxardığı, uçarkən geyindiyi paltarları qoxlamaq üçün bağrıma basıb, burnuma yaxınlaşdıraraq üzümü göylərə tutub, nalə çəkib fəryad qoparmaq istəyəndə gözlərim azacıq gün işığı düşən sobanın borusu ilə dam örtüyü arasında sıxışıb bir-birinə sarılmış başıaşağı iki qızılgülə sataşdı. Qırmızı donunu sarı xəzana dəyişmiş güllər uzaq romantik günün xatirəsini danışırdılar. Təkcə bunu deyə bildim: "Mənim Yusifim, sənin Arzunam!"